# ŞƏHİDLƏR ÖLMƏZDİR...



Daşaltı faciəsindən 20 il keçir. Bu qanlı faciədə şəhid olan qəhrəmanlarımız heç zaman unudulmayacaq!

Belə qəhrəmanlardan biri–Əhmədov Riad Fikrət oğlu 1956-cı il dekabr ayının 20-də Bakıda anadan olub. R.Əhmədov 1979-cu ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1976-1979-cu illərdə Azərbaycan SSR Ədliyyə Nazirliyi yanında Məhkəmə Ekspertizası İnstitutunda laborant işləyib. 1979-1980-ci illərdə həmin nazirliyin Qanun Layihələrinin Hazırlanması və Qanunvericiliyin Sistemləşdirilməsi idarəsində məsləhətçi, 1980-1981-ci illərdə isə Ədliyyə Nazirliyinin kadrlar şöbəsində baş məsləhətçi vəzifələrində çalışıb. 1981-ci ildə təhlükəsizlik orqanlarında fəaliyyətə başlayan Riad Əhmədov 1981-1982-ci illərdə DTK-nın Minskdəki Ali Məktəbində təhsil alıb. 1984-cü ildə isə DTK-nın Y.V.Andropov adına İnstitutun nəzdindəki kurslarda dinləyici olub.

1992-ci ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyi Kəşfiyyat İdarəsinin rəis müavini vəzifəsinə irəli çəkilmişdir. Riad Əhmədovun başçılıq etdiyi xüsusi kəşfiyyat dəstəsi Dağlıq Qarabağ uğrunda gedən döyüşlərdə düşmənin xeyli canlı qüvvəsini və hərbi texnikasını məhv etmişdir.

Riad Əhmədov 1992-ci il yanvar ayının 25-də “Daşaltı əməliyyatı”nın gedişində böyük qəhrəmanlıq göstərmiş, düşmənin xeyli sayda canlı qüvvəsini və hərbi texnikasını məhv etmişdir. Bu döyüşdə əfsanəvi qəhrəman ağır yaralanmışdır. Ölənlərin arasında onun cəsədi tapılmadığından Riad Əhmədovun adı itkin düşmüş döyüşçülərin siyahısına daxil edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi sərəncamı əsasında Azərbaycanın Milli Qəhrəmanı Riad Fikrət oğlu Əhmədovun 20 dekabr 2013-cü il tarixdə doğum günü münasibətilə vaxtılə yaşadığı binanın fasadında və onun adını daşıyan 203 saylı tam orta məktəbdə xalq rəssamı, professor Fuad Salayevin hazırladığı xatirə lövhəsinin rəsmi açılışı olmuşdur.

Respublika Şəhriyar sarayında milli qəhrəmanın xatirəsi yad edildiyi böyük, təntənəli mərasimdə Riad Əhmədovun həyat və qəhrəmanlığı haqqında ətraflı danışıldı. Milli Təhlükəsizlik Akademiyasının rektoru general-leytenant Ziya Yusifzadə çıxış edərək öz xatirələri ilə bölüşdü: “1980-ci illərdə mən Dövlət Təhlükəsizlik Komitəsinin sədri olarkən Riadın atası Fikrət Əhmədov Nazirlər Sovetində sədr müavini işləyirdi. Bizim çox yaxın dostluq əlaqələrimiz olduğundan Riadı lap uşaqlıqdan tanıyırdım.

1980-ci ilin sentyabrından Riad Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində əvvəl 2-ci, sonra isə 1-ci şöbədə kəşfiyyat və əks-kəşfiyyatda əməliyyatçı, baş əməliyyatçı, daha sonra 1992-ci ilə qədər baş əməliyyat qrupunun rəhbəri oldu. İşlədiyi on il müddətində bilik və bacarığı ilə komitə işçilərinin dərin hörmətini qazandı, bir çox mükafatlar, fəxri fərmanlar, döş nişanı, orden və medallarla təltif edildi. Milli təhlükəsizlik mayoru Riad Əhmədov 10-12 nəfərdən ibarət xüsusi kəşfiyyat qrupu yaradaraq Şuşa, Ağdam, Əskəran, Xocalı, Goranboy istiqamətində kəşfiyyat xarakterli əməliyyatlar zamanı əsas nöqtələrdə düşmənin silah anbarlarını, ağır texnikasını və canlı qüvvəsini məhv edərək bir çox kəndlərimizi işğaldan azad etmişdir. Bu xidmətlərinə görə ona polkovnik-leytenant rütbəsi verilmişdir.

1992-ci il yanvarın 26-da strateji əhəmiyyətə malik olan Daşaltı əməliyyatı zamanı Riad və onun Əfqanıstan müharibəsində xüsusi döyüş yolu keçmiş dostları Azərbaycanımızın müstəqilliyi, azadlığı, ərazi bütövlüyü uğrunda son damla qanlarına qədər vuruşmuşlar. 1992-ci ildə əfsanəvi qəhrəman Riad Əhmədova vətən qarşısındakı xidmətlərinə görə Milli qəhrəman fəxri adı verilmişdir”.

Ulu öndər Heydər Əliyevin sabiq köməkçisi Əli Əsədov milli qəhrəmanımızı yada salaraq demişdir: “Riad Əhmədov, mən, milli təhlükəsizlik naziri Eldar Mahmudov, xalq rəssamı Fuad Salayev və bir çoxları 1964-1974-cü illərdə 134 saylı orta məktəbdə oxumuşuq, həmçinin bir binada, bir həyətdə yaşadığımızdan dostluq edirdik. Hələ 7-8-ci siniflərdə oxuyarkən hərəmiz bir sənət sahibi olacağımız barədə fikir söyləyərkən Riad babası kimi hərbçi-polkovnik olacağını deyirdi. Babası Həmid Əhmədovun adına Naxçıvan şəhərində küçə olması ilə fəxr edirdi. Zaman keçdi, böyüdük, orta və ali məktəbi başa vurduq. Hərə arzuladığı sənətin sahibi oldu. Riad da Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirib əvvəl Ədliyyə Nazirliyində, az sonra isə Dövlət Təhlükəsizlik Komitəsində işləməyə başladı. Qısa bir zaman kəsiyində təcrübəli kəşfiyyatçı kimi hörmət qazandı və təhlükəsizlik mayoru rütbəsinə layiq görüldü. Lakin həmin illərdə respublikada baş verən hadisələr ürəkaçan deyildi. Sovet ordusunun köməyi ilə silahlı hücumlar nəticəsində torpaqlarımız işğala məruz qaldı. Respublikada vəziyyət daha da kəskinləşdi. 20 Yanvar 1990-cı ildə respublikada məlum qanlı faciə törədildi. Mən o illərdə partiya işində idim. Riadla tez-tez görüşürdüm. Bir dəfə o, mənə dedi ki, Qarabağda vəziyyət çox təhlükəli həddə çatıb, Goranboyda, Çaykənddə, Xankəndidə, Əskəranda qan tökülüb. Erməni yaraqlıları sovet ordusunun dəstəyi ilə qırğınlar törədir, bunun qarşısını isə alan yoxdur. Vəziyyət son dərəcə qorxuludur, nəsə bir iş görmək lazımdır.

Məşhur ziyalı ailəsinin yeganə oğlu Riad Əhmədov xüsusi kəşfiyyat qrupunun rəhbəri kimi Qarabağın Şəfəq kəndində kəşfiyyat xarakterli əməliyyatlara başladı. Respublikada isə vəziyyət anarxiya həddinə çatmışdı. Hakimiyyət uğrunda müxtəlif qruplaşmaların mübarizəsi, mitinqlər səngimək bilmirdi. Baş nazirin müavini vəzifəsində çalışan Fikrət Əhmədov məcburi qaydada təqaüdə göndərildi. O, bu haqsızlığa dözmədi, qəflətən ürək xəstəliyinin kəskinləşməsi nəticəsində vəfat etdi. Riad Əhmədov da təhlükəsizlik orqanından xaric edildi. Bütün bu sarsıntılar Əhmədovlar ailəsinə çox ağır zərbə vursa da Riad ruhdan düşmədi, Müdafiə Nazirliyi tərkibində yaranmış Xüsusi kəşfiyyat idarəsinin rəis müavini kimi döyüşçü dostları ilə Qarabağa yollandı. Riad Əhmədov və onun kəşfiyyat qrupu bir çox kəndləri işğaldan azad etsə də, 1992-ci ilin yanvarın 26-da Daşaltı əməliyyatı zamanı mühasirəyə düşərək qeyri-bərabər döyüşdə son güllələrinə qədər vuruşdu, düşmənə ağır zərbə vuraraq Vətən uğrunda canlarını fəda etdilər.

Xalq rəssamı Fuad Salayev, xalq şairi Fikrət Qoca, polkovnik Tofiq Qəmbərov, Riad Əhmədovun adını daşıyan 203 saylı tam orta məktəbin direktoru Dürdanə xanım da əfsanəvi qəhrəmanın keçdiyi şərəfli ömür yolu haqqında danışdılar.

Milli qəhrəmanın həyat yoldaşı Elmira xanım Əhmədova Riad Əhmədovun xatirəsi ilə bağlı tədbirin məhz dövlət səviyyəsində keçirildiyinə görə ölkə başçısı cənab İlham Əliyevə, birinci xanım Mehriban xanım Əliyevaya bu diqqət və qayğı üçün sonsuz təşəkkürünü bildirdi. Daha sonra Elmira xanım, qeyd etdi ki, Riad həqiqətən xalqımızın qəhrəman oğludur. “O, öz canını, həyatını təmənnasız olaraq Vətəninə, xalqına, ailəsinə fəda etdi. Biz buna təəssüflənmirik. Bu gün firavan həyatımız naminə, müstəqil Azərbaycanımızın çiçəklənməsi naminə canını qurban verdi. O, ailənin bir tək oğlu idi, onun nəyi çatmırdı? Riadı Qarabağa çəkib aparan Vətən sevgisi idi. O, xüsusi kəşfiyyat qrupu ilə tez-tez döyüş bölgələrinə gedəndə qayıdıb gələnəcən biz hamımız sanki yüz dəfə ölüb dirilirdik. Anası Bahar xanım, bacısı Mehriban, mən, iki körpə qızı o gələnəcən rahatlıq tapmırdıq. Axırıncı dəfə yaralı gələndə mən ona dedim ki, Riad, daha bəsdir, mən çox qorxuram. İki körpə qızını, məni, ananı, bacını kimin umuduna qoyub gedirsən? O, mənə elə cavab verdi ki, söz tapmadın deməyə. Üzümə baxıb gülümsədi:”Sizi, Vətəni, torpağımızın bütövlüyünü qorumaq üçün gedirəm. Mən getməsəm, sizi kim qoruyacaq?”. O, getdi, bir daha qayıtmadı. Onun səsi indi də qulağımdan getməyib. Axırıncı dəfə gələndə xəstə idi. Bərk soyuqlamışdı, qızdırması vardı. Bahar xanım da çox yalvardı. Sözə baxmadı, dedi ki, yoldaşlarım məni gözləyir, iki-üç günə gələcəm. Silahını götürüb getdi. Ertəsi gün Şuşadan zəng vurdu, qızının ad gününü təbrik etdi, dedi ki, darıxmayın, iki günə qayıdıb gəlirəm. İki gündən sonra Daşaltı faciəsi baş verdi. İyirmi ildən artıq keçsə də, biz onun ölümünə inanmırıq. İnanıram ki, bir gün o, qəflətən qapını açıb içəri girəcək. Hamımız yolunu gözləyirik...”

Riad Əhmədovun qəhrəmanlığını əks etdirən “Riad, qayıt” filmi də çəkilib. Filmdə əfsanəvi qəhrəmanın rəhbərlik etdiyi xüsusi kəşfiyyat qrupunun Qarabağ döyüş bölgələrində apardığı uğurlu əməliyyatlardan, bir çox kəndlərin, o cümlədən Nəbilər kəndinin işğaldan azad olmasından danışılır. Burada Riadın sağ qalan döyüşçü dostlarının söylədikləri xatirələr də yer alıb.

**Nəriman İSMAYIL,**
**yazıçı-jurnalist.**

# UŞAQ ƏDƏBİYYATIMIZA YENİ TÖHFƏ




Tanınmış şair, ədəbiyyatşünas, Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət İşçisi, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlu oxucuların görüşünə “Qızılı məktublar” adlı yeni kitabı ilə gəlmişdir. Uşaqlar üçün nəzərdə tutulan bu kitabda şairin son illərdə yazdığı yığcam, mənalı, yüksək bədii sənətkarlıq xüsusiyyətləri ilə diqqəti cəlb edən şeirləri toplanmışdır.

Uşaq ədəbiyyatı Rafiq Yusifoğlu yaradıcılığının ən aparıcı qollarından biridir. Bu da təsadüfi deyildir. Rafiq müəllim uzun illərdir ki, balalarımızın sevimli jurnalı “Göyərçin” jurnalının baş redaktoru vəzifəsində çalışır. Orta məktəb dərsliklərinə xeyli şeiri, hekayəsi, nağılı daxil edilən Rafiq Yusifoğlu özü də bir neçə dərsliyin müəllifidir.

Rafiq Yusifoğlu yurdumuzun təbiətini vurğunluqla tərənnüm edən, onun gözəlliklərini yüksək bədii ustalıqla oxuculara çatdırmağı bacaran şairlərimizdəndir. Onun yeni kitabında da bu mövzuda yazılan şeirlər çoxluq təşkil edir. Ən maraqlı cəhət odur ki, müəllif hadisələrə uşaq gözü ilə baxıb mənalandırmağı bacarır. Məsələn, onun “Anası yoxdu” şeirinin balaca qəhrəmanı çox xoşbəxtdir. Ona görə ki, anası yanındadır və uşağa elə gəlir ki, uca dağlar belə ona qibtə ilə baxır:

*Mən anamla qonaq getdim,*
*Güllü-çiçəkli dağlara.*
*Zümrüd donlu meşələrə,*
*Sərin sulu bulaqlara.*

*Anasız bu gözəlliyin,*
*Həyatın mənası yoxdu.*
*Mənə qibtəylə baxırlar,*
*Dağların anası yoxdu...*

“Azərbaycan dağları”, “Bənövşə gölü”, “Nabrana gəl”, “Mənzərə”, “Üzü dağlara sarı”, “Zor bulaq”, “Zirvədən baxanda”, “Gözəllik vadisi”, “Zəyəm çayının nəğməsi”, “Qaşqa dağ”, “Bu yol Ləzəyə gedir” və s. bu kimi şeirləri oxuyanda yurdumuzun gözəllikləri göz önündə canlanır. Oxucu qiyabi olaraq Kəpəzi, Qoşqarı, Murovu, Şahdağı, Batabat yaylağını, Qusarı, Nabranı, Tovuzu, Xızını, Xəzər sahillərini səyahət edir. Gözəl mənzərələrin gözəl təqdimatı adama zövq verir, onu həyəcanlandırır. Oxucu da şeirlərin lirik qəhrəmanları kimi gəzmək, görmək həvəsinə düşür:

*Yoxdur bizim vətənin*
*Bu dünyada əvəzi.*
*Qəlbimi tərk eləmir*
*Gəzmək, görmək həvəsi.*

*Yamaclarda, düzlərdə*
*Günəş xalı toxuyur.*
*Gözəlliyi görəndə*
*Qəlbim nəğmə oxuyur...*

Şair təbiət hadisələrini özünəməxsus bir dillə mənalandırmağı bacarır. Məsələn, “Ağacdələn” şeirində meşə həkiminin ağacları dimdikləməsini şair belə mənalandırıb:

*Sevinərək “Yaz gəlib!”*
*Deyirdi ağacdələn.*
*Meşənin qapısını,*
*Döyürdü ağacdələn.*

Ümumiyyətlə, hadisələri mənalandırmaq, hər hansı otu, böcəyi, gülü, çiçəyi mənalandırmaq ustalığı R.Yusifoğlu poeziyasına xas olan səciyyəvi cəhətlər kimi yadda qalır.

Kitabdakı bölmələrin də adı maraqlıdır. “Möcüzələr diyarı”, “Heç belə də iş olar”, “Sara, Fateh, Fatimə”, “Yurdumun övladları”, “Gül açıb yurdumun düzləri, Baxıram, sevinir gözlərim”, “İşi işə bənd elə, Görən desin: bax belə!”, “İşığın özü —uşağın gözü”, “Dil açanda balalar, Kəlmələri bal olar”, “Bənövşə, bəndə düşə”...bölmələrin adları kimi orada toplanan şeirlərin də mövzusu rəngarəngdir. Rafiq Yusifoğlu poeziyasının balaca qəhrəmanları hər hadisəyə, təbiət lövhələrinə özlərinə məxsus bir tərzdə yanaşmağı bacaran, dünyanı dərk etməyə çalışan insanlardır.

“Qızılı məktublar” son illərdə yaranan dəyərli uşaq kitablarından biridir. İndi ölkəmizdə bu cür kitablara çox böyük ehtiyac var. Ümid edirik ki, Rafiq Yusifoğlu və onun qələm dostları yeni-yeni əsərləri ilə uşaq ədəbiyyatımızı daha da zənginləşdirəcəklər.

**Günel ALMAZ,**
**AMEA Folklor İnstitutunun doktorantı.**

# Jurnalistlərin mükafatlandırılma mərasimi

Bu günlərdə Filiz şadlıq sarayında Zia.az xəbər portalının təşkilatçılığı ilə tədbir keçirilmişdir.

Kütləvi informasiya vasitələri nümayəndələrinin, ayrı-ayrı ictimai birliklərin, iş adamlarının iştirakı ilə keçirilmiş tədbirdə əsas məqsəd Zia.az informasiya agentliyinin açılış mərasimi olmuşdur. Agentliyin apardığı araşdırmalara görə KİV nümayəndələri arasında sorğu keçirilmiş və göstərdiyi xidmətlərə görə bir qrup jurnalistlər mükafatlandırılmışdır. Rəy sorğusuna görə “Respublika” qəzeti obyektivliyinə, ölkəmizin ictimai-siyasi, iqtisadi həyatını dolğun işıqlandırdığına görə I yerə layiq görülmüşdür. Qəzetin əməkdaşları Zülfüqar Şahsevənli və Rauf İlyasoğlu “İlin jurnalisti” diplomu ilə təltif olunmuşlar.

“Space” televiziyasının aparıcıları Kamran Həsənli, Günel Həsənzadə, Şəbnəm Hümbətova, “Şərq” qəzetinin müxbiri Tahirə Məmmədova “İlin jurnalisti”, Hindistanın Azərbaycanda fəaliyyət göstərən fövqəladə və səlahiyyətli səfiri Vinold Kumar “İlin səfiri”, Gülnarə Əhmədova, Azadə Abbasqızı “İlin iş adamı”, müğənnilərdən Leyla İdrisqızı və Səid Nurtəbrizi “İlin rəmzi”, Tamxil Ziyəddinoğlu və Şamo Nərimanoğlu “İlin baş redaktoru” diplomuna layiq görülmüşlər.

Zia.az informasiya agentliyinin təsisçisi və baş redaktoru Zümrüd Güləliqızı mükafatçıları təbrik etmiş və onlara yeni-yeni uğurlar arzulamışdır.

Tədbir tanınmış sənət adamlarının, musiqiçilərin iştirakı ilə davam etdirilmişdir.

**Rauf İLYASOĞLU,**
**“Respublika”.**

# Şirkətin külli miqdarda pulunu mənimsəmiş şəxslər barəsində cinayət işi başlanmışdır

Bakı, 30 yanvar (AzərTAc). “Türkan Telekom” Məhdud Məsuliyyətli Cəmiyyətində yol verilmiş qanun pozuntuları ilə əlaqədar toplanmış material Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsində araşdırılmışdır.

Cəmiyyətin sürücü-ekspeditoru Siyavuş Nəsibovun qulluq mövqeyindən sui-istifadə etməklə fiziki şəxs qismində sahibkarlıqla məşğul olan Samir Abbasi ilə əlbir olaraq telefon danışıq kartlarının satışından əldə edilmiş 452 min manat məbləğində pulu müəssisənin hesabına mədaxil etməyərək mənimsəmələrində şübhələr üçün əsaslar olduğundan fakta görə Cinayət Məcəlləsinin 179.2.3-cü (mənimsəmə və ya israf etmə), 179.3.2-ci və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanmışdır.

Baş Prokurorluğun mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, hazırda iş üzrə istintaq davam etdirilir. ■

# DÜNYA BUGÜN

## FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR

### ❑ ABŞ: RUSİYA QADAĞAN EDİLMİŞ RAKETLƏRİN SINAĞINI KEÇİRİR



ABŞ rəhbərliyi NATO üzrə partnyorlarını Rusiyanın orta mənzilli “yer-yer” sinfinə aid ballistik raketin sınağını keçirməklə 1987-ci ildə orta və qısa mənzilli raketlərin ləğv edilməsi barədə Müqaviləni pozması ilə bağlı məlumatlandırıb. Bu barədə “The New York Times” qəzeti yazıb.

Qəzetin məlumatına görə, ruslar bu növ raketləri artıq bir neçə ildir ki, sınaqdan keçirir, lakin ABŞ administrasiyası əvvəllər Moskva ilə münasibətləri pozmamaq üçün bu sınaqların dayandırılmasını təkidlə tələb etmirdi.

Dövlət Departamentinin rəsmi nümayəndələri indi də sınaqlar barədə qəti qərar çıxarmağın tez olduğunu bildirirlər. Ancaq qəzetin Vaşinqtondakı mənbələri iddia edirlər ki, söhbət dəqiqliyi ilə hələ Mixail Qorbaçov və Ronald Reyqanın imzaladıqları müqavilənin Rusiya tərəfindən pozulmasından gedir.

Ağ Evdən Moskvanın bağlanmış razılaşmalara riayət etməsini tələb edən Respublikaçılar Partiyasından olan konqresmenlər də sərt mövqe tutublar.

Qəzetin yazdığına görə, Barak Obama administrasiyasının ləngliyi sınaqdan keçirilən raketlərin formal olaraq qitələrarası hesab olunmasından irəli gəlir. Çünki bu raketlərin uçuş məsafəsi müqavilədə nəzərdə tutulan 5000 kilometrdən çoxdur.

### ❑ UKRAYNADA AMNİSTİYA HAQQINDA QANUN QƏBUL EDİLDİ



Ukrayna hakimiyyəti və müxalifət saatlarla davam edən mübahisələrin sonunda kütləvi aksiya iştirakçılarına şamil olunacaq əfv haqqında razılığa gələ bilməyiblər. Belə ki, parlament qanunu müxalifətin razılaşmadığı variantda qəbul edib. Bu barədə “BBC” agentliyi xəbər verib.

Hakim Regionlar və Kommunistlər Partiyasının fraksiyaları, həmçinin Ali Radanın fraksiyadan kənar deputatları “regional” Yuri Miroşniçenkonun variantında inzibati binalar və yolların etirazçılardan azad edilməyini nəzərdə tutan qanun layihəsinə səs veriblər.

Nəticədə Ali Radanın növbədənkənar sessiyasında qanunun lehinə 416 deputatdan 232-si səs verib.

Layihənin çoxluğun səsini toplaması üçün prezident Viktor Yanukoviçin Ali Radaya gəlməsinə ehtiyac yaranıb. O, Regionlar və Kommunistlər Partiyasının fraksiyasını toplayıb və deputatlara qəti şəkildə Miroşniçenkonun layihəsini dəstəkləməyi məsləhət görüb.

Eyni zamanda, müxaliflər iddia edib ki, prezidentin gəlişinə qədər “regionçulardan” çoxu müxalifətin təqdim etdiyi qanun layihəsindən birinə səs verməyə hazır olub.

Bununla yanaşı, Ukraynanın müxalif “Svoboda” partiyasının lideri Oleq Tyaqnibok parlament tərəfindən “Amnistiya haqqında” qanunun qəbul edilməsinə baxmayaraq, etirazçıların meydanı tərk etməyəcəyini bəyan edib. “APA”nın Ukrayna mətbuatına istinadən verdiyi xəbərə görə, O.Tyaqnibok hesab edir ki, qanun bütün məsuliyyəti məhz müxalifətin üzərinə qoyur.

“Bu qanunun qəbul edilməsi ilə onlar həm törədilmiş bütün cinayətlərin, eləcə də ölkədəki vəziyyət ilə bağlı məsuliyyəti müxalifətin üzərinə atmaq istəyirlər”, - deyə Oleq Tyaqnibok bildirib.

Qərarla bağlı müxalifətin atacağı addımlar barədə sualı cavablandıran Oleq Tyaqnibok bildirib ki, yaranmış vəziyyət “Xalq Radasında” müzakirə olunacaq.

### ❑ “CENEVRƏ-2” BİR HƏFTƏ SONRA YENİDƏN DAVAM EDƏCƏK



Suriyadakı böhranın həlli üçün İsveçrənin Cenevrə şəhərində keçirilən müzakirələr davam edir. Bu barədə “TRT” xəbər verib. Məlumata görə, “Cenevrə-2” konfransının yeddinci günündə Suriya müxalifəti və rejimin nümayəndə heyətləri keçid hökumətinin yaradılması, Cenevrə Bəyannaməsinin tətbiq edilməsi, zorakılıq və terrorla mübarizə mövzularını müzakirə ediblər.

Eyni zamanda, müzakirələrin ilk turu cümə günü başa çatsa da, tərəflər bir həftə sonra yenidən bir araya gələcək. Lakin müxalifət nümayəndələri mühüm bir irəliləyiş əldə olunmayacağı təqdirdə görüşləri davam etdirməyəcəklərini bildirən açıqlama yayıblar.

Bir tərəfdən “Cenevrə-2” konfransı davam edərkən, digər tərəfdən ölkədəki humanitar məsələyə dair böhran dərinləşməkdə davam edir. Hər gün bomba hücumlarına məruz qalan suriyalılar soyuq hava şəraiti səbəbindən çətinliklə qarşı-qarşıyadır. Hələbdə əhali isinmək üçün parklardakı ağacları kəsir.

Qeyd edək ki, ölkədə üç ildir davam edən qarşıdurmalarda indiyədək 100 mindən artıq insan həyatını itirib, 9 milyon yarım insan isə evlərini tərk etmək məcburiyyətində qalıb.

### ❑ MİSİRDƏ BAŞ NAZİRİN MÜAVİNİ İSTEFA VERDİ



Misir hökumətinin başçısı, Hazem əl-Beblavi müavini və eyni zamanda iqtisadi bloka nəzarət edən Ziyad Bahəddinin istefa ərizəsini qəbul edib. Bu barədə “Rosbalt” informasiya agentliyi xəbər verib.

Misir hökuməti baş nazirinin müavini və beynəlxalq əlaqələr üzrə nazir Ziyad Bahəddinin istefa ərizəsini hələ bazar ertəsi təqdim etsə də, xəbər verilirdi ki, Hazem əl-Beblavi öz müavininin istefasını qəbul etməyib və Ziyad Bahəddin vəzifəsini icra etməkdə davam edib.

Nazirlər Kabinetindən iqtisadi məsələləri idarə edən əsas üzvlərdən birinin getməsi haqqında xəbər ölkə hökumətində, Hazem əl-Beblavinin özü də daxil olmaqla, gələcək kadr dəyişikliyi haqda şayiələr fonunda yayılıb.

Prezident Hüsni Mübarəkin devrilməsindən sonra formalaşdırılmış hazırkı kabinet və hökumət üzvlərinin fəaliyyəti opponentlər tərəfindən tez-tez sərt tənqidə məruz qalır. Hazem əl-Beblavi təhlükəsizlik sahəsində problemlərin öhdəsindən gələ bilməməkdə, həmçinin davam edən iqtisadi böhranla bağlı təqsirli bilinir.

Baş nazir müavini postuna təyin olunmazdan öncə Sosial-Demokrat Partiyasının liderlərindən biri olan Ziyad Bahəddin artıq siyasi fəaliyyətini davam etdirmək niyyətində olduğunu bildirib.

### ❑ SURİYA HÖKUMƏTİ MİNLƏRLƏ EVİ MƏHV EDİB



“Human Rights Watch” təşkilatının yeni hesabatında Suriya hökumətinin “qəsdən və qanunsuz olaraq” minlərlə evi məhv etdiyi bildirilir. Peyklə çəkilən şəkillərdə 2012 və 2013-cü illərdə müxalifətin idarə etdiyi Dəməşq və Həma şəhərlərində irimiqyaslı dağıntı işlərinin aparılması kimi görünən əməliyyatlar nəzərə çarpır. Bu barədə “BBC” agentliyi xəbər verib.

Hesabatda bildirilir ki, mülki şəxslərin evlərinin səbəbsiz yerə dağıdılması və kütləvi cəzalandırılması hərbi cinayətdir.

“Human Rights Watch” təşkilatının bəyanatında 2012 və 2013-cü illərin iyul ayları arasında baş verən yeddi irimiqyaslı dağıntı qeyd edilir.

Peyklə çəkilən şəkillər, onlayn videolar və şahidlərin ifadələrinə görə təşkilat bu işlərin hakimiyyət tərəfindən həyata keçirildiyi qənaətindədir.

Qeyd edək ki, peyk şəkillərində Dəməşq və Həma şəhərlərindəki yeddi ərazinin dağıdılmasından əvvəl və sonrakı vəziyyəti göstərilir.

Eyni zamanda, təşkilatın məlumatına görə, ən azı 145 hektar torpaq sahəsi məhv edilib. Bu isə təxminən 200 futbol meydançasına bərabərdir.

Hökumət rəsmiləri təşkilata bildiriblər ki, binaların uçurulması qanunsuz şəkildə tikilən binaları dağıtmaq üçün həyata keçirilib. Amma təşkilatın araşdırmasına əsasən, hökuməti dəstəkləyən ərazilərdə evlər bu şəkildə uçurulmayıb.

### ❑ İRANIN NÖVBƏTİ NÜVƏ DANIŞIQLARININ VAXTI MƏLUM OLDU



İranla “altılıq” ölkələri arasındakı növbəti nüvə müzakirələri fevralda Cenevrədə keçiriləcək. “APA”nın İran mətbuatına istinadən verdiyi məlumata görə, bunu İranın xarici işlər nazirinin beynəlxalq və hüquqi məsələlər üzrə müavini, baş nüvə müzakirəçisi Seyid Abbas Əraqçı bildirib.

Nüvə müzakirəçisinin sözlərinə görə, tərəflər arasında danışıqların ilk raundunun fevralın ortalarından axırlarınadək olan bir müddət içərisində keçirilməsi planlaşdırılır.

Seyid Abbas Əraqçı deyib: “Növbəti danışıqlarda əsas müzakirə məsələlərindən biri Ərak ağır su nüvə reaktoru olacaq. İran bu nüvə reaktoru ilə bağlı mövcud narahatlıqları aradan qaldırmağa hazırdır. Ərak ağır su nüvə reaktoru başqalarının yardımı olmadan bizim 30 ildən çox ağır elmi səylərimizin nəticəsidir. Bu, milli qürur məsələsidir”.

A.Əraqçının sözlərinə görə, növbəti nüvə müzakirələrini təsvir etmək çətindir: “Lakin hər iki tərəf ümumi məqsədə nail ola bilib. Ona görə mən çətin olsa da, növbəti müzakirələrdə kompromisin əldə ediləcəyinə inanıram”.

Qeyd edək ki, bundan əvvəl bəzi mətbu orqanlar İranla “altılıq” ölkələri arasındakı növbəti nüvə müzakirələrinin ABŞ-ın Nyu-York şəhərində keçiriləcəyi barədə məlumat yaymışdılar. ■